**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# ATİB Azərbaycanın maliyyə sektoru üzrə hesabat təqdim etdi

**No: 09/25/104**
**29.04.2009**

Azərbaycan – Türkiyə İş Adamları Birliyi (ATİB) Azərbaycanda fəaliyyət göstərən iş adamlarının iqtisadi və sosial sahədə informasiya ilə təminatını yaxşılaşdırılmaq, eləcə də ölkənin inkişaf prioritetlərinə uyğun fəaliyyətlərinə dəstək vermək məqsədi ilə 2008-ci ildən müvafiq tədqiqat proqramı həyata keçirməkdədir. Bu proqram çərçivəsində “Azərbaycanın maliyyə sektoru üzrə hesabat”ın 29 aprel 2009-cu ildə ATİB ofisində ictimai müzakirəsi təşkil edilmişdir.

Araşdırmanın əsas məqsədi iş adamları və geniş ictimaiyyət üçün Azərbaycan Respublikasının maliyyə xidmətləri bazarı haqqında geniş məlumatlı hesabat hazırlamaqdan ibarət olmuşdur.

Hesabat Azərbaycan Respublikasının maliyyə xidmətləri bazarının əsas seqmentləri olan bank, qeyri-bank kredit bazarı, sığorta, lizinq bazarı, həmçinin hər bir bazarı tənzimləyən hüquqi baza və bazarların problemləri haqqında ətraflı məlumat verir. Bundan əlavə, yüksək inkişaf etməmiş qiymətli kağızlar və faktorinq xidmətləri bazarının tarixi, mövcud vəziyyəti də hesabatda öz əksini tapmışdır. Sonda araşdırmanın nəticələri və maliyyə bazarının inkişafı üçün ekspert tövsiyələri öz yerini almışdır

Sözügedən Hesabatın 1-ci fəsli ölkədəki ümumi iqtisadi vəziyyət haqqında məlumat verir. 2-ci fəsildə Azərbaycan Respublikasının bank sektorunun qısa inkişaf tarixi, Bank qanunvericiliyi, Bank sektorunun problemləri və risklər haqqında məlumat verilir. Hesabatın 3-cü fəslində qeyri-bank kredit təşkiltaları, kredit ittifaqları, onların mövcud vəziyyəti, problemləri, mikromaliyyə təşkilatları, mikromaliyyə sektorunda vəziyyət, mikromaliyyə üzrə qanunvericilik, bu sektorun perspektivləri araşdırılmışdır. Hesabatın 4-cü fəslində sığorta bazarı, sığorta bazarının əsas iştirakçıları, sığorta bazarının perspektivləri təhlil edilmiş və qiymətləndirilmişdir. Azərbaycanın Lizinq bazarı, lizinq bazarının mövcud vəziyyəti, lizinq qanunvericiliyi, lizinq bazarının perspektivləri Fəsil 5-də verilmişdir. 6-cı fəsildə Azərbaycanın qiymətli kağızlar bazarı, 7-ci fəsildə isə faktorinq bazarı haqqında məlumat verilir.

Qeyd edək ki, ATİB artıq tədqiqat proqramı çərçivəsində “Azərbaycanın səhiyyə sektoru: mövcud vəziyyət və inkişaf perspektivləri” mövzulu tədqiqatı ictimaiyyətə təqdim etmişdir və yaxın zamanlarda “Azərbaycanda azad rəqabətin mövcud vəziyyəti və ölkə iqtisadiyyatına təsiri” və “Azərbaycanda təhsil sektorunun və biznesin qarşılıqlı əlaqələrinin inkişaf perspektivləri” mövzularında həyata keçirdiyi araşdırmalar üzrə də ictimai müzakirələri təşkil etmək niyyətindədir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**